## Doktorantura və dissertantura səviyyəsində xarici dil üzrə imtahanın strukturu

Xarici dil üzrə qəbul və fəlsəfə doktoru imtahanı vermək istəyən namizəd (doktoranturaya qəbul olmaq istəyən şəxslər) və iddiaçılar (artıq doktoranturaya qəbul olmuş şəxslər) xarici dil imtahanında çoxpilləli təhsil sistemi çərçivəsində əvvəllər mənimsədikləri bilik və bacarıqları, söz ehtiyatını, praktik qrammatikanın əsaslarını nitq fəaliyyətinin bütün növləri üzrə kompleks şəkildə, yəni dinləyib-anlama, oxuyub-anlama, yazı və danışıq vərdişləri əhatə olunmaqla nümayiş etdirməlidirlər.

Artıq 2024-2025-ci tədris ili üçün doktoranturaya qəbul və fəlsəfə doktoru imtahanlarında namizəd və iddiaçıların xarici dil biliyi yeni imtahan modelinə əsasən qiymətləndiriləcəkdir. 2024-cü ildə həm doktoranturaya qəbul imtahanında, həm də doktoranturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçılar üçün xarici dillər üzrə fəlsəfə doktoru imtahanında əvvəlki illərdə olduğu kimi, dinləyib-anlama bloku üzrə iki dinləmə mətni (monoloq və dialoq) və mətnlərin hər birinə aid 5 qapalı tipli test tapşırığı olmaqla, ümumilikdə 10 test tapşırığı təqdim olunacaq. Oxuyub-anlama və dil qaydaları blokunda qrammatik və leksik biliyi yoxlamaq məqsədilə bir kiçikhəcmli mətn üzrə 10 qapalı tipli test tapşırığı, bir oxu mətni üzrə 5 qapalı, digər oxu mətni üzrə isə 5 seçim tipli test tapşırığı, həmçinin yazı blokunda həm vizual məlumatın təsviri, həm də esse tipli yazı tapşırıqlardan istifadə olunacaq. Namizəd və iddiaçıların danışıq bloku üzrə qiymətləndirilməsi isə əvvəlki qaydada şifahi formada kompüter proqramı vasitəsilə həyata keçiriləcəkdir.

Qeyd olunmalıdır ki, bütün yazı işləri iki ekspert tərəfindən yoxlanılır və qiymət fərqi olduqda iş üçüncü ekspert tərəfindən qiymətləndirilir. Digər hallarda iki qiymətin ədədi ortası götürülür (misal üçün, ekspertlər 3 və 4 qiyməti qoyduqda, yekun qiymət 3.5 bal çıxarılır). Eyni prosedur danışıq bloku üzrə də tətbiq olunur, namizəd və iddiaçıların verdiyi cavabların ekspertlər tərəfindən qiymətləndirilməsi məqsədilə onların cavabları lentə alınır/yazılır.

Danışıq bloku üzrə qiymətləndirmə şifahi formada kompüter proqramı vasitəsilə həyata keçirilir. Vətəndaşların kompüter proqramı ilə yaxından tanış olmaları üçün imtahan öncəsi link paylaşılır və imtahan verənlərin mütləq şəkildə danışıq bloku üzrə ümumi məlumat və imtahan qaydaları ilə yaxından tanış olmaları tövsiyə olunur. Qeyd edək ki, yalnız imtahan üçün qeydiyyatdan keçmiş şəxslər linkə daxil olaraq proqramın demo versiyası ilə tanış ola bilərlər.

Danışıq bloku üzrə qiymətləndirmə üç mərhələdən ibarətdir. Birinci mərhələdə iddiaçı verilmiş şəkli öncə təsvir edir, sonra isə artan çətinlikdə olan mövzu üzrə suallara fikrini bildiririr, səbəblər gətirir və izahatlar verərək əsaslandırır. Hər sualı cavablandırmaq üçün düşünməyə ayrılan vaxt 1 dəqiqədir. Bu tapşırıqda birinci sual şəklin təsvirini (1 dəqiqə), ikinci sual daha ümumi (1 dəqiqə), üçüncü sual (1 dəqiqə) isə nisbətən xüsusi xarakter daşıyır. Bu tapşırıq maksimum 3 balla qiymətləndirilir.

İkinci mərhələdə verilmiş məlumatlar əsasında (lehinə/əleyhinə) uyğun olanı seçərək fikrini əsaslandırmaq üçün təqdimetmə bacarığını nümayiş etdirir. Düşünmək üçün namizədə/iddiaçıya maksimum üç dəqiqə vaxt verilir və iki dəqiqə ərzində namizəd/iddiaçı cavabını təqdim edir. Bu tapşırıq maksimum 5 balla qiymətləndirilir.

Üçüncü mərhələdə namizədə/iddiaçıya təqdimatla əlaqədar bir sual verilir. Sonuncu mərhələyə düşünməyə ayrılan vaxt 1 dəqiqə, cavab üçün isə ayrılan vaxt 1 dəqiqədir. Bu tapşırıq maksimum 2 balla qiymətləndirilir.